# Azərbaycan bəstəkarlarının 50 mahnısı

# 24. Nədən oldu?

Musiqisi Şəfiqə AXUNDOVANIN
Sözləri Bəxtiyar VAHABZADƏNİNDİR











I

Əllərini üzüb məndən,
Yarım birbaş gedən oldu.
Can deyib, can eşidərdik,
Bu ayrılıq nədən oldu?
Nədən oldu, yar?

Nəqarət:

Öz eşqimdən, diləyimdən
Ayrı düşdüm illərlə mən.
Ancaq səndən ayrı gəzən
Ürək deyil, bədən oldu.
Nədən oldu?

II

Yaranmışıq məhəbbətdən,
Alovlanıb yanıram mən.
Bu həsrətdən, bu möhnətdən
Gözüm yaşı dən-dən oldu.
Nədən oldu?
Nəq.